# AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ İLƏ

# TÜRKİYƏ QIZIL AYPARA CƏMİYYƏTİ

# ARASINDA

# ANLAŞILMA MEMORANDUMU

**BAKI – 2012**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Türkiyə Qızıl Aypara Cəmiyyəti ( bundan sonra sənəddə "Partnyorlar" adlandırılacaq) ümumi maraq kəsb edən sahələrdə əməkdaşlıq qurmaq və bu əməkdaşlığı inkişaf etdirmək üzrə ümumi istəklərini və Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsiplərini əldə rəhbər tutaraq, hər iki partnyorun və bu Anlaşılma Memorandumuna imza atan ölkələrin qanunlarına uyğun olaraq aşağıdakılar barədə razılığa gəldilər :

**Maddə 1.**

Bu Anlaşılma Memorandumu informasiya/təcrübə mübadiləsi, imkan qurma, birgə humanitar fəaliyyətlər, personal mübadiləsi və personala təlim vermə sahəsində, habelə partnyorların ümumi razılığı ilə diğər sahələrdə partnyorlar arasında əməkdaşlıq qurmaq və bu əməkdaşlığı gücləndirmək məqsədi daşıyır.

**Maddə 2.**

1. Partnyorlar bu Anlaşılma Memorandumunun 1-ci Maddəsində müəyyən edilmiş ümumi maraq kəsb edən sahələrlə bağlı effektiv əməkdaşlıq metodologiyaları işləyib hazırlayır və təqdim edirlər.

2. Partnyorlar konsultasiya vasıtəsilə humanitar ehtiyaclar və yardım intervensiyaları (müdaxilələri) ilə ilgili məsələlər üzrə əməkdaşlıq edirlər.

3. Partnyorlar mümkün olduqda özlərinin humanitar intervensiyaları ilə ilgili məsələlərə dair bir-birilərinə məlumat verirlər və ikitərəfli danışıqlardan asılı olaraq həmin məsələlərə dair bilgi və təcrübə mübadiləsi edirlər.

4. Partnyorlar bir-birlərinin işçilərini/könüllülərini bu Anlaşılma Memorandumunun 1-ci Maddəsində müəyyən edilmiş proqram mübadiləsi xüsusundakı treyninqlərə, seminarlara, simpoziumlara və konfranslara dəvət edirlər.

5. Partnyorlar yerli və beynəlxalq görüşlərdə, konfranslarda və qarşılıqlı maraq kəsb edən sahələrə dair diskusiyalarda bir-birilərinə lazımi texniki və maliyyə dəstəyi göstərirlər.

**Maddə 3.**

Partnyorlar razılaşırlar ki, bu Anlaşılma Memorandumunun istənilən maddəsinin icrası nəticəsində əmələ gələn işçi personalının xərclərini cavabdeh tərəf ödəməlidir və partnyorlar arasındakı əməkdaşlıq hər hansı kommersiya mülahizələri ilə idarə olunmamalıdır.

**Maddə 4.**

Hazırki Anlaşılma Memorandumunun interpretasiyası və ya tətbiqindən irəli gələn hər hansı mübahisə tərəflər atasında konsultasiya və danışıq vasitəsilə sülh yolu ilə həll olunmalıdır.

**Maddə 5.**

Bu Anlaşılma Memorandumu qüvvəyə mindiyi tarixdən başlayaraq üç il müddətinə qüvvədə qalır və Anlaşılma Memorandumunun bitməsi tarixinə ən azı üç ay qalmış tərəflərdın biri digərini Anlaşılma Memorandumuna xitam vermək və ya onu təzələməmək istəyi barədə yazılı şəkildə xəbərdar etməyincə bu Anlaşılma Memorandumu eyni müddət üçün avtomatik olaraq təzələnir.

Bu Anlaşılma Memorandumu ingilis dilində iki orijinal nüsxədə 15 Noyabr 2012-ci il tarixində Bakı şəhərində imzalanmışdır.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti

Milli Parlamentin deputatı

Doktor Novruzəli Aslanov

Türkiyə Qızıl Aypara Cəmiyyətinin Prezidenti

Ahmet Lütfi Akar